

Qərib MEHDİ

# Şəhid ruhu: "Anacan, az ağla"

(esse)

***2020-ci ildə 44 günlük müharibə qələbəmizlə başa çatdı. Buna Vətən müharibəsi və ya İkinci Qarabağ savaşı da deyirlər. Ordumuz erməni işğalçılarına sarsıdıcı zərbələr endirdi. Azərbaycan Silahlı Qüvvələri canını, qanını bu Vətənə halal edərək tarix yazdı.***

***Ancaq Xankəndinə, Xocalıya, Xocavəndə, Ağdərəyə nəzarət edə bilmədiyimiz üçün tam qələbə qazanmamışıq. «Sülhməramlılar» adı altında Dağlıq Qarabağa yeridilən rus ordusu buna mane oldu. Əslində, bir işğal başqa bir işğalla əvəzləndi. Təslim olan düşmənlə ərazi bütövlüyümüz barədə sülh müqaviləsinin bağlanması bilinməz aylara, illərə qaldı. Reallıq belədir. Ancaq ruhdan düşmək olmaz.***

İndi isti müharibə yerini soyuq müharibəyə – diplomatiyaya verib. Minsk Qrupu – ABŞ, Fransa, Rusiya toqquşmada olan tərəfləri yenidən səmərəsiz, uzantılı danışıqlar masası arxasına dəvət edir. Məqsəd unitar Azərbaycan dövlətinin tərkibində kiçiksaylı erməni toplumuna Ermənistanla birləşməyə hüquqi cəhətdən yol açan müstəqillik – öz yolunu təyinetmə statusu verməyi qəbul etdirməkdir. Azlıqların hüququnu qorumağımız onlara sərf etmir. Axı qonşular dinc yaşasalar, Rusiya kimi avtoritar rejimlər öz niyyətlərini, başqalarını özlərindən asılı etmək siyasətlərini necə sürdürə bilərlər?

Rusiyanın, məğlub Ermənistanın və qalib Azərbaycanın razılaşmasına görə Azadlıq Savaşı bitib. Atılmayan topların səsi də bunu təsdiq edir. Üzdə görünən belədir. Nə yazıqlar ki, müharibə könüllərdə bütün ağrı-acısı ilə davam edir. Azad yaşamın şərti olan bu ağrı-acını üstün tərəf olmağımıza baxmayaraq, bütövlükdə mənsub olduğumuz cəmiyyət də çəkir – yaşlılar, cavanlar, uşaqlar bir də savaşın «xüsusi çəkisini» göz yaşlarında yuyan analar.

*İndi isti müharibə yerini soyuq müharibəyə – diplomatiyaya verib. Minsk Qrupu – ABŞ, Fransa, Rusiya toqquşmada olan tərəfləri yenidən səmərəsiz, uzantılı danışıqlar masası arxasına dəvət edir. Məqsəd unitar Azərbaycan dövlətinin tərkibində kiçiksaylı erməni toplumuna Ermənistanla birləşməyə hüquqi cəhətdən yol açan müstəqillik – öz yolunu təyinetmə statusu verməyi qəbul etdirməkdir. Azlıqların hüququnu qorumağımız onlara sərf etmir. Axı qonşular dinc yaşasalar, Rusiya kimi avtoritar rejimlər öz niyyətlərini, başqalarını özlərindən asılı etmək siyasətlərini necə sürdürə bilərlər?*

İşğalda olan torpaqlarımızın işğaldan azad olması asan başa gəlmədi. Yüzlərlə şəhid verdik. Qəhrəman qazilərimizin, şəhidlərimizin hesabına itki hədər getmədi. Sentyabr döyüşü ölkəmizi şərəfləndirdi. Ordumuz xalqımızı aşağılayıcı «məğlub ölkə» imicindən, xəcalətindən xilas etdi.

Qələbə həmişə qürurverici olur. O ki, qala ədalətli qələbəyə sahiblənmiş xalq, millət olasan. Biz qələbə çalmışdıq. Hər kəsin qəlbində qürur hissi üçrəngli bayrağımız kimi dalğalanırdı. Allah!.. Allah!.. Qazilərimiz haqqında eşidəndə, üz-üzə gəlib əllərini sıxanda, xoş sözlə yaralarına məlhəm olanda fərəhdən ürəyimiz dağa dönürdü. Şəhidlərimizin vətənə fəda olmaq eşqinə heyrət etməyə bilmirdik. Hər necə olsa, itki acısını da yaşamalı olurduq. Üzdən hamı təmkinli görünürdü. Bu hal təbii yaşantı idi. Sanki sınmağa qadağa qoyulmuşdu. Şəhid – müqəddəs itki olan yerdə göz yaşısız keçinmək mümkünüydümü? Yox. Bu işi hamının əvəzinə anaların yaşlı gözləri öz üzərinə götürüb. Bunu şəhidlər də bilirdilər. Ona görə ya sağlığında, ya ruha çevriləndən sonra şəhid Elməddin demişdi: «Anacan, az ağla».

Qürurunu göz yaşından üstün tutan analar da var. Ancaq onlar çoxluğu təşkil etmir. Deyiblər, gözəl də deyiblər: «Şəhidlik ən uca rütbədir». Ana bunu bilir. Ancaq o, balasını sağ-salamat yanında görmək istərdi. Bu mümkün deyilsə, ana göz yaşına qadağa qoya bilməz. Mən fikirlərimi daha səmimi anlatmaq üçün iki şairin yaradıcılığından iki nümunəni köməyimə çağırdım.

Klassik şairimiz Əli Kərim düşmən güllələrinə tuş gəlmiş, əsgər oğlunu itirmiş ananın halını belə təsvir edir:

**Sapunqoraya analar gəlib ağlar.**
**Göz yaşında islanar**
**bayatılar,**
**ağılar.**

Ağrının şiddətilə barışırsan. Elə deyilmi?

Qarabağ şəhidinin anasından bir xahişi var: «Anacan, az ağla». Yəni ki, həyatın sonu deyil. Yaşamağa yer saxla. Bu fikirlə də barışmaya bilmirsən. Bu fikri tam açmaq üçün bir az geri dönməliyəm.

Müharibənin öndə bir cür, arxada başqa cür əlamətləri, mənzərəsi olur. Hər ikisi insanın varlığını silkələyir, qarışıq hisslər yaşadır, ondan uzaqlaşmaq, ağrı-acılardan asudə həyat barədə düşüncələrə qərq edir. Müharibə rəsmən bitsə də, hələ onun nəticələri uzun müddət şüurumuzda, qəlbimizdə, baxışlarımızda əks olunacaq. Müharibə dinc həyatın təbii axarını dəyişir, bir «rejissor» kimi əvvəlki nizama yeni quruluş verir. Əvvəllər hara baxırdın, şirin vədli, sərfəli yaşama çağırış edən reklamlarla üzləşirdin. İndi «rejissor» yaşam tərzinə fərqli quruluş verib. Şəhərin ən görümlü yerlərində vətənin bütövlüyü uğrunda şirin canını fəda etmiş şəhidlərimizin şəkilləri yer alıb. Hamısı da əsl igid əsgər kimi məğrur baxışlarla bizlərə nikbin olmağı, xoş gələcəyə ümidli olmağı, onlardan nigaran qalmamağı tövsiyə edirdi.




Haqq işi uğrunda şəhid olanların ruhu Allah məqamındadır. Bundan etibarlı yer harada ola bilər?! Onlar deyə bilməyəcəklərini baxışları ilə anladırlar: «Biz yox olduq ki, siz var olasınız». Nə böyük xidmət, İlahi?

***Bütün bunların hamısını şəhid anaları yaxşı bilirlər. Bilirlər ki, övladlarının ruhu Allahın himayəsindədir. Bununla belə, əlini uzadanda oğluna toxunmayan ananın gözlərindən yaş əskik olmaz. O, bu yaşla oğul itkisinin çəkisini, miqyasını anladır. Hətta bu duyğuya Allah da mane olmur. Tanrı mane olmursa, oğul da məsləhətini əsirgəmir: «Anacan, az ağla».***

Sərgilənən şəhid şəkillərinə sinə dolusu qürur hissilə baxıram. Həmin andaca yoxluq duyğusu qırmızı parçanın üzərindən qara lent kimi keçir. Qazandığımızla itirdiyimiz göz önünə gəlir. Dayanacaqların birində iri çərçivəyə alınmış bir şəhidin – Namazov Elməddin Nəsib oğlunun nə şəkli, nə də sözləri neçə vaxtdır ki, gözlərim önündən getmir. O, sanki Allah dərgahından telefonla anasına zəng edib deyir: «Anacan, az ağla». Yuxarıda da dönə-dönə xatırlatdığım bu sözlərlə şəhid əsgər anasının vaxtında verdiyi öyüdü indi özünə qaytarır: «Vətən insanın böyük evidir. Evi olmayanlar kirayənişin kimi yaşamağa məhkumdurlar. Biz ona görə qazi və şəhid olduq ki, siz böyük evinizdə – vətəninizdə kirayənişin kimi yox, sahib kimi yaşayasınız. Deməli, çox ağlamağa ehtiyac yoxdur. Ona görə də az ağla, anacan».

***Sərgilənən şəhid şəkillərinə sinə dolusu qürur hissilə baxıram. Həmin andaca yoxluq duyğusu qırmızı parçanın üzərindən qara lent kimi keçir. Qazandığımızla itirdiyimiz göz önünə gəlir. Dayanacaqların birində iri çərçivəyə alınmış bir şəhidin – Namazov Elməddin Nəsib oğlunun nə şəkli, nə də sözləri neçə vaxtdır ki, gözlərim önündən getmir. O, sanki Allah dərgahından telefonla anasına zəng edib deyir: «Anacan, az ağla». Yuxarıda da dönə-dönə xatırlatdığım bu sözlərlə şəhid əsgər anasının vaxtında verdiyi öyüdü indi özünə qaytarır: «Vətən insanın böyük evidir. Evi olmayanlar kirayənişin kimi yaşamağa məhkumdurlar. Biz ona görə qazi və şəhid olduq ki, siz böyük evinizdə – vətəninizdə kirayənişin kimi yox, sahib kimi yaşayasınız. Deməli, çox ağlamağa ehtiyac yoxdur. Ona görə də az ağla, anacan»***

Şəhidlərin xeyli hissəsi ailə sahibləridir. Övladlarının olması onları vətənə qurban olmaq hissindən yayındıra bilməmişdir. Onlar varislərinin qayğısını cəmiyyətin ixtiyarına buraxıb əsgər paltarı geyinmiş, silah götürmüş, can şirinliyinin üstündən adlayaraq düşmənlə döyüşlərə atılmışlar. Elməddin də övladına – varisinə qazilik və şəhidlik məktəbini keçməyi vəsiyyət etmişdir. Ailəli, varisli başqa şəhidlər də eyni yolun yolçusu olmuşlar. Cəmiyyət olaraq biz şəhidlərimizin varislərinin qayğı yükünü ləyaqətlə çəkməliyik. Yəni, necə? Bu izahı tutarlı sözlərlə söyləməyə nəsrin gücü çatmır. Kömək üçün nəzərdə tutduğum ikinci şair Eltun Türkelin bu mövzuda yazdığı şeirə müraciət edib onu bütövlükdə oxucuların nəzərinə çatdırıram.

### Şəhid övladı

**Dünyaya çatdırır haqq səsimizi,**
**Qoruyaq yaşamaq həvəsimizi,**
**Pay verək nəfəsdən nəfəsimizi,**
**Bizə əmanətdir şəhid övladı.**

**Ağrısı, acısı acımız olsun,**
**Doğma qardaşımız, bacımız olsun.**
**Daim başımızda tacımız olsun,**
**Bizə əmanətdir şəhid övladı.**

**Yerin də, göyün də xətri var onda,**
**Güllə yağışının çətri var onda.**
**İgid atasının ətri var onda,**
**Bizə əmanətdir şəhid övladı.**

**Duyaq! Deyiləsi çox sözləri var,**
**Düşmənin gözünə ox gözləri var.**
**Saçında şəhidin əl izləri var,**
**Bizə əmanətdir şəhid övladı.**

Şairin bu doğru və təsirli sözlərini həyata keçirmək üçün həm tövsiyəmizi, həm də tələbimizi əsirgəməməliyik. Onda igid oğul itirmiş şəhid anaları ya ağlamaz, ya da xahiş olunduğu kimi az ağlayar.

Bu yazının son nöqtəsini qoymaq istərkən televizorda xalqın bağrından qopan bir mahnı səsi eşidildi:

**Sil gözün yaşın, Qaragilə,**
**Ağlama, bəsdi...**